# Bir qul günah edərək: "Ey Rəbbim, günahımı bağışla!

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) izzət və cəlal sahibi olan Rəbbindən rəvayət edərək belə buyurdu: "Bir qul günah edərək: "Ey Rəbbim, günahımı bağışla!" – dedi. Müqəddəs və pak olan Allah buyurdu: "Qulum günah etdi və bildi ki, günahı bağışlayan və bu günaha görə hesaba çəkən Rəbbi vardır." Sonra qul yenidən günah etdi və dedi: "Rəbbim mənim günahımı bağışla". Müqəddəs və pak olan Allah dedi: "Qulum günah etdi və bildi ki, günahı bağışlayan və bu günaha görə hesaba çəkən Rəbbi vardır." Sonra qul yenidən günah etdi və dedi: "Rəbbim mənim günahımı bağışla". Müqəddəs və pak olan Allah dedi: "Qulum günah etdi və dərk etdi ki, günahı bağışlayan və bu günaha görə hesaba çəkən Rəbbi vardır. Nə istəsən et, artıq səni əfv etdim!"

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Rəbbindən rəvayət edir ki, qul günah edib, sonra:" Allahım mənim günahımı bağışla" deyə dua edərsə, uca Allah buyurar: Qulum günah etdi və dərk etdi ki, onun günahını bağışlayan, günahını başqalarından gizlədən, əfv edən və ya bu günaha görə cəzalandıran Rəbbi vardır. Ona görə Mən onu bağışladım". Sonra qul yenidən günah edər və:" Allahım mənim günahımı bağışla" deyər, uca Allah : Qulum bir günah etdi və dərk etdi ki, onun günahını bağışlayan, eybini örtən, əfv edən və bu günaha görə cəzalandıran Rəbbi vardır, Mən qulumu bağışladım" deyə buyurar. Sonra qul yenidən günah etməyə davam edər və deyər:" Allahım mənim günahımı bağışla", və uca Allah cavabında: Qulum günah etdi və dərk etdi ki, onun günahını bağışlayan, eybini örtən, günahından keçən və bu günaha görə cəzalandıran Rəbbi vardır. Ona görə Mən qulumu bağışladım. Bir halda ki, qulum hər dəfə günah edib sonra peşman olur, günahlara dönməyəcəyinə əzm edir, lakin nəfsi ona qalib gəlir və yenidən günah edir və nə qədər ki, günah edib, sonra tövbə edəcək, bağışlanma diləyəcək, qoy qulum istədiyini etsin. Tövbə öncəkiləri yox edər" deyə buyurar.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee